**Cəfərov M.** Ana, mən şəhid oldum... // Respublika. - 2024. - 7 sentyabr. - **№ 194**. - S. 10.

**2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi növbəti hərbi təxribata cavab olaraq başlayan 44 günlük Vətən müharibəsi düşmənin məğlubiyyəti ilə nəticələndi. Bu haqq savaşında qələbəyə görə şəhidlərimizə və qazilərimizə borcluyuq.**

Şəhid olmağı özünə şərəf bilən hər kəsin daxilində yüksək vətənpərvərlik, cəsurluq, əqidə vardır. Elə buna görə də onlar şüurlu şəkildə ölümü gözə ala bilirlər. Belə qəhrəman oğullarımızdan biri də Ələkbər İsgəndər oğlu Ələsgərovdur. O, 3 sentyabr 1998-ci ildə Bakı şəhərində dünyaya göz açıb. 2015-ci ildə Mikayıl Müşfiq adına 18 saylı məktəbi bitirib. Həmin il Azərbaycan Dənizçilik Kollecinə daxil olub.

Ələkbər 2015-2017-ci illərdə Beyləqan rayon "N" saylı hərbi hissədə top komandiri olaraq həqiqi hərbi xidmət keçib. O, general-mayor Polad Həşimovun şəhidliyindən sonra könüllü orduya yazılıb. Vətən müharibəsi başlayanda Füzulinin azadlığı uğrunda gedən döyüşlərə qatılıb. 1 oktyabr 2020-ci ildə Füzulinin Alxanlı kəndi uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olub. Hökməli qəbiristanlığında dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən Ələkbər Ələsgərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

"Ələkbər biz evlənəndən 17 il sonra doğulub. 22 yaşında itirdik onu... Hər işində dəstək olmağa çalışırdım". Füzuli döyüşlərində həlak olan Ələkbər Ələsgərovun atası İsgəndər Ələsgərov oğlu haqqında belə deyir.

Anası Sveta Ağayeva Ələkbərin Dənizçilik Kollecini bitirdiyini söyləyir: "4 il həm oxuyub, həm də işləyib, bizə kömək edib. Uşaqlıqdan o da, qardaşı da əsgər paltarı geyinməyi xoşlayırdılar, taxtadan tapançalar düzəldirdilər. Ələkbər həmişə əlini kürəyimə vurub deyirdi ki, görərsən necə oğlanlar böyütmüsən, torpaqlarımızı biz alacağıq. Deyirdi, şəhid olsam, Çingiz Mustafayevin "Ana, mən şəhid oldum" mahnısını qoyub qulaq asarsan. Dediyi kimi də oldu. Sanki oğlum şəhid olmaq üçün yaşamışdı. Sentyabrın 21-i telefonuna zəng gəldi ki, Səfərbərlik və hərbi xidmətə çağırış üzrə dövlət xidmətinin rayon idarəsinə gəlməlisən. Mən ona nə sarıldım, nə

də görüşdüm. Dedi, təlimə gedib qayıdacağam. Amma son gedişi oldu... 11 gün sonra... O arada cəmi iki dəfə zəng vurdu, Füzulidə olduğunu dedi. Soruşurduq necəsən, bizi qorxutmamaq üçün düzünü demirdi. Amma atışma səslərini eşidirdim. Oktyabrın 1-də zəng gəldi, Ələkbərin anası olub-olmadığımı soruşdular və heç nə demədən dəstəyi asdılar. Başa düşdüm ki, pis bir şey olub. Sonra evə polis gəldi, onun arxasınca çıxanda küçədə böyük bir izdiham gördüm. Hər şey aydın idi, oğlum şəhid olmuşdu…".

Ələkbərin iş yoldaşı Emin Eyvazov onun çox vətənpərvər gənc olmasından danışır: "Ailəsindən gizlətsə də, bizə könüllü yazıldığını demişdi. Çox sevinərək getdi, hamımız yığışıb onu yola saldıq. Atasının dostu, polkovnik-leytenant rütbəli hərbçimiz ermənilərin ələ keçirilmiş tanklarından birinin üstünə Ələkbərin ad-soyadını yazaraq şəklini çəkib ailəsinə göndərib ki, oğlunuzun qisasını aldıq".

Sveta xanım hər gün "Ana, mən şəhid oldum" mahnısını dinləyir: "Oğlumdan son xatirədir, hər gün idman edə-edə bu mahnıya qulaq asardı...". Mənim xəyallarım vardı, Mənim öz dünyam vardı, Mənim sevdiyim vardı, Ana, mən şəhid oldum…